Təhsil naziri Misir Mərdanov iclası giriş sözü ilə açaraq bildirib ki, nümayəndə heyəti Litva Respublikasının məktəb şəbəkəsinin rasionallaşdırılması və şagirdbaşına maliyyələşdirilməsi islahatları üzrə təcrübəsi ilə yaxından tanış olub.

Təhsil Nazirliyi İqtisadiyyat şöbəsinin müdir müavini Orxan Kərimov "Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyətinin Litva Respublikasının təhsil sisteminin öyrənilməsi ilə bağlı 30 mart-6 aprel 2009-cu il tarixlərində həmin ölkəyə olan tədris səfərinin hesabatı" mövzusunda təqdimat-məruzə edib.O öz təqdimatında Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (2009-2014-cü illər) "Məktəb şəbəkəsinin rasionallaşdırılması və şagirdbaşına maliyyələşdirilməsi islahatlarının qiymətləndirilməsi" alt komponenti çərçivəsində Litva Respublikasının təcrübəsinin öyrənilməsindən söz açıb, bu ölkənin təhsil sistemi,ümumtəhsil məktəbləri, məktəb şəbəkəsinin optimallaşdırılmasının strateji prinsipləri haqqında məlumat verib. O.Kərimov eləcə də Litva Respublikasının Şilut rayonu üzrə məktəb şəbəkəsinin optimallaşdırılması təcrübəsindən və bu barədə görülmüş işlərdən bəhs edib.

Görüşdə iştirak edən Dünya Bankının təhsil üzrə eksperti cənab Xuan Moreno məktəblərin rasionallaşdırılması tədbirlərinə uyğun olaraq öz təkliflərini irəli sürüb, rasionallaşdırma nəticəsində qənaət edilmiş vəsaitin xərclənmə istiqamətlərindən söz açıb.

Sonda iştirakçılar məruzə ətrafında müzakirələr aparıblar.